# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına davamlı inkişaf və rifah arzu edirik.

*Zati-alinizə hörmət və ehtiramla,*
*Qardaşınız*

***Salman bin Əbdüləziz Al SƏUD,***
***İki Müqəddəs Ocağın Xadimi,***
***Səudiyyə Ərəbistanının Kralı***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm. Zati-alinizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Respublikasının hökumətinə və xalqına daha böyük inkişaf və firavanlıq diləyirəm.

*Zati-alinizə hörmət və ehtiramla,*

***Məhəmməd bin Salman***
***bin Əbdüləziz Al SƏUD,***
***Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,***
***Baş nazir***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Gününün 105-ci ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan zati-alinizə və Sizin simanızda dost Azərbaycan xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

Əminəm ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq gələcək illərdə xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, səadət, ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının***
***Prezidenti***

---

Azərbaycan.- 2023.-15 iyun.- S.2.